**OT342.7. DOI: 10.30546/EMNAA.2023.25.4.7**

# İNSAN HÜQUQLARININ POZULMASINA GÖRƏ DƏYƏN MƏNƏVİ ZƏRƏRİN XÜSUSİYYƏTLƏRİ

***Qasımzadə İ.İ.***
***Milli Aviasiya Akademiyası***

*Hər bir insanın cəmiyyətdə şəxsiyyət kimi formalaşmasını tənzimləyən mühüm keyfiyyətlərdən biri də həmin şəxsin şərəf, ləyaqət və işgüzar nüfuzudur. Qeyri-əmlak xarakterli hüquqlar pozulan zaman şəxs ona dəyən mənəvi ziyanın ödənilməsini tələb etmək hüququna sahibdir. Bu, əvvəllər əxlaqdan kənar hesab olunurdusa, günümüzdə demokratik cəmiyyətin mühüm tələblərindən biri hesab olunur. Ölkə ərazisində məhkəmə təcrübəsinin təhlili bizə sübut edir ki, mənəvi zərərin kompensasiyası ilə bağlı olan məhkəmələr tərəfindən baxılan mülki işlərin 80 % hissəsini kütləvi informasiya vasitələrində həqiqətə zidd olan və fiziki şəxslərin mənafeyinə xələl vuran məlumatların yayılması ilə bağlı olan şərəf və ləyaqətin müdafiəsi ilə əlaqəli işlərdən təşkil olunur. Buna əsas səbəb kimi isə qüvvədə olan qanunvericiliyin tam təkmilləşdirilməməsidir. Məhz bu məqalədə mənəvi ziyanın ödənilməsi ilə bağlı olaraq həm nəzəriyyədə, həm də praktikada tez-tez rast gəlinən və hələ də birmənalı həllini tapmayan problemlər araşdırılır.*

***Açar sözlər:*** *şərəf, ləyaqət, işgüzar nüfuz, mənəvi zərər, kompensasiya, zərər vuran şəxs, zərərçəkən şəxs, mülki hüquq münasibətlərinin müdafiəsi, mənəvi iztirab.*

Mənəvi ziyanın ödənilməsi müasir demokratik cəmiyyətin tələbidir. Bununla əlaqədar olaraq, bu tədqiqatın aktuallığı və xüsusi əhəmiyyəti danılmaz faktdır. Bu mövzu nəinki nəzəri, həm də praktiki əhəmiyyət kəsb edir. Aktuallığı isə, bir də onunla izah olunur ki, yalnız praktikada deyil, həmçinin nəzəriyyədə də hələ ki, birmənalı həllini tapmayan problemlər vardır. Məsələn, şəxsin əmlak hüquqlarının pozulması ilə vurulan mənəvi ziyanın ödənilməsi, hüquqi şəxslərə mənəvi ziyanın vurulmasının mümkünlüyü məsələsi, mənəvi ziyanın həcminin müəyyən edilməsi, üçüncü şəxslərə mənəvi ziyanın vurulmasının mümkünlüyü. Keçmiş SSRİ mülki qanunvericiliyində yalnız əmlak zərəri öz əksini tapırdı. Bu məqalənin yazılmasında əsas məqsəd ”mənəvi zərər” anlayışı ümumiyyətlə qanunvericilikdə leqal şəkildə təsbit edilməmişdir. Belə hesab edilirdi ki, mənəvi zərərə düçar olan şəxs pul kompensasiyası tələb edə bilməzdi. Belə ki, mənəvi zərərin pulla ödənilməsi əxlaqdankənar hərəkət hesab olunurdu. Bu zaman şəxs tərəfindən məsələni cinayət mühakiməsi qaydasında yaxud da inzibati qaydada həll olunması tələb oluna bilərdi [1].

“Mənəvi ziyan” institutu Azərbaycan Respublikasının qanunvericiliyində yeni anlayışdır. Lakin bununla belə bu institutun mövcudluğu, demək olar ki, hamıya məlumdur. Bunu son zamanlar eyni işlə əlaqədar artmaqda olan məhkəmə prosesləri də sübut edir. Belə ki, hər kəs konstitusiya ilə ona verilmiş hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciəti ona vurulan ziyanın əvəzinin ödənilməsi üçün ən ədalətli yol hesab edir. Mənəvi ziyan isə hər bir şəxsin qeyri-əmlak xarakterli hüquqları pozulduğu təqdirdə ödənilməsini tələb etmək hüququ olduğu ziyan növlərindən biridir.

Mülki hüquq elmi öhdəlikləri müqavilədən və mülki hüquq pozuntusundan əmələ gələn öhdəliklərindən ibarətdir. Belə bölgü hələ Qədim Roma hüquqşünası olan Qay tərəfindən təklif olunmuşdur. Eramızdan əvvəl qeyd edilən bu bölgü hal-hazırda mülki hüququn əsasını təşkil etməklə bərabər öz əhəmiyyətini qoruyub saxlamışdır.

Mülki qanunvericilikdə qeyd edilən mülki hüquqi sanksiyalardan biri kimi mənəvi zərərə görə kompensasiyanın ödənilməsini aid etmək olar. Mənəvi zərərlə əlaqədar olaraq yaranan kompensasiyanın ödənilməsi qeyri-əmlak hüquqlarının pozulduğu zaman tətbiq olunur.

İlk öncə mənəvi zərərin nə olduğunu izah etmək istəsək, şəxsin keçirdiyi bəzi sarsıntı və iztirabları qeyd etməklə ifadə edə bilərik, belə ki, buna nümunə olaraq 3 noyabr 2008-ci il tarixində qəbul edilən "Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarını qeyd etmək olar. Qərarda şəxslərə vurulan mənəvi zərər dedikdə şəxsin özünün, həmçinin yaxın qohumlarının iş yerini itirməsi, fəal ictimai həyat tərzindən məhrum edilməsi, şəxsi, ailə və tibbi sirlərinin açıqlanmağı, şərəf, ləyaqət və işgüzar nüfuzunun ləkələnməsi kimi qeyd edilir. Buna əsas səbəb qeyd edilən faktorların insan şüurunda mənfi psixi reaksiyaya səbəb olmaqla bərabər, zaman keçdikcə fiziki əzab kimi özünü göstərir [2].

Şəxsiyyətin sosial statusu dedikdə onun cəmiyyət normaları ilə tənzimlənən obyektiv-sosioloji xarakteristikası nəzərdə tutulur. Ancaq şəxsiyyət anlayışı istifadə edildikdə istənilən halda subyektiv yanaşma tələb olunur. Onu da vurğulamaq yerinə düşər ki, cəmiyyət müxtəlif insanlardan təşkil edilib, bu amil də şəxsiyyətə yanaşmada subyektivizmin artmasına səbəb olur. Bu baxımdan mənəvi zərər dedikdə şəxsiyyətin daxili aləmini sarsıdan, ona iztirab verən ziyan kimi başa düşülməlidir, həmçinin ziyan dedikdə isə istənilən itki, konkret vəziyyətdə isə mənəvi rahatlığın itirilməsi nəzərdə tutulur. Ancaq mənəvi ziyan anlayışı ilə bağlı olaraq müxtəlif yanaşmalar mövcuddur. Beləliklə, ilk dəfə olaraq SSRİ Mülki Qanunvericiliyinin Əsaslarında mənəvi zərər terminindən istifadə olundu. Bu əsaslar 1991-ci ildə qəbul edildi və o dövrdə mövcud olan dövlət qanunvericiliyi də həmin anlayışı mənəvi zərər kimi rus dilindən tərcümə edərək tətbiq etməyə başlamışdı.

Mənəviyyat, əxlaq məsələləri isə birbaşa adət hüquqi ilə bağlı anlayışlardır. Əvvəllər adətin nizamladığı məsələlər daha sonra qanunlarda öz əksini tapdı. Belə hallarda isə adət hüququ ilə qanun arasındakı nisbəti müəyyən etmək lazımdır. Adətin inkişaf etməsi onun dəfələrlə təkrar olunmağıdır. Roma hüquqşünasları bu nisbəti belə qeyd edirlər: "adətin nüfuzu kifayət qədər əhəmiyyətlidir, ancaq o qanundan daha əhəmiyyətli olmamalıdır". Ancaq istənilən halda adətlərin cəmiyyətin məhsulu olduğu nəzərə alınmalıdır.

Qanunvericiliyimizdə mülki hüquqi sanksiya qismində mənəvi zərərin ödənilməsi nəzərdə tutulsa da, nə "mənəvi zərər" anlayışı müəyyən edən, nə də onun ödənilmə mexanizmini tənzimləyən vahid normalar sistemi mövcud deyil. Artıq göstərdiyimiz kimi, mülki qanunvericiliyimiz hətta "mənəvi zərər" anlayışını müəyyən etməmişdir. Şərəf və ləyaqətin, işgüzar nüfuzun müdafiəsi barədə Mülki Məcəllənin 23-cü maddə də daxil olmaqla, mənəvi zərərin ödənilməsi qaydalarını müəyyənləşdirən norma mövcud deyil. Ə.Hacıbəyli müəyyən edir ki, bu məsələ ayrıca toplanmış normalar vasitəsilə nizama salınmalı idi. Çünki mənəvi zərərin ödənilməsi zərurəti təkcə məcəlləmizin 23-cü maddə ilə məhdudlaşmır. İkincisi, bəzi qanunvericilik aktları, adətən, mənəvi zərərin ödənilməsindən danışarkən Mülki Məcəlləyə istinad edir. Mülki Məcəllə isə məlum olduğu kimi bu barədə heç bir qayda müəyyən etməmişdir. Üçüncüsü isə Mülki Məcəllə mülki qanunvericiliyin Konstitusiyası olduğundan bu boşluğun fəsadları da çox narahatlıq doğurur. Nəhayət, dördüncüsü isə 21-ci maddə zərərə sırf iqtisadi məzmunlu kateqoriya kimi yanaşdığından mənəvi zərəri və onun miqdarını bu maddə vasitəsilə müəyyən etmək əslində qeyri-mümkündür [3].

İnsan hüquqlarının pozulması nəticəsində vurulmuş zərərin əvəzininin ödənilməsi AR Mülki Məcəlləsində də öz əksini tapmışdır. Ziyan dövlətin beynəlxalq hüquqa zidd əməlinin nəticəsi olaraq vurulan hər hansı zərəri, istər maddi, istərsə də mənəvi zərəri əhatə edir.

“Zərər” anlayışı Mülki Məcəllənin 21-ci maddəsində təsbit edilmişdir. Buna baxmayaraq, məcəlləmizin digər maddələrində xüsusən zərər anlayışına üstünlük verilsə də, bir sıra hallarda, əsasən də maddi ziyandan bəhs olunarkən “ziyan” anlayışından da istifadə olunur. Təəssüflər olsun ki, bu anlayışların qarışdırılması təkcə Mülki Məcəlləyə deyil, ümumiyyətlə Azərbaycan Respublikası qanunvericiliyinə xas tendensiyadır. Məsələn, Mülki Məcəllənin 21-ci maddəsində, habelə IX bölməsində zərər anlayışından istifadə edilir. Mülki Məcəllənin 1096-cı maddəsində həm ziyan, həm zərər anlayışlarından istifadə olunur. Mülki Məcəllədə 563-cü və 564-cü maddələrində isə “ziyan” anlayışı istifadə olunur. Konstitusiyanın 68-ci maddəsində, ”İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” 19 sentyabr 1995-ci il tarixli qanunun 7-ci maddəsində “zərər” anlayışından istifadə edilir. Fikrimcə, terminologiyanın dəqiq müəyyən olunması mənəvi zərər barədə hüquqi normaların tətbiqinin mümkün hədlərini müəyyənləşdirmək baxımından çox mühüm əhəmiyyət kəsb edir.

Qanunun 21.1-ci maddəsinə uyğun olaraq zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olan şəxs ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini qanunda və yaxud müqavilədə zərərin əvəzinin daha az miqdarda ödənilməsi nəzərdə tutulmadıqda tələb edə bilər. 21.2-ci maddəyə görə zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və yaxud çəkməli olduğu xərclər, əmlakından məhrum olması və yaxud əmlakının zədələnməsi, habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər nəzərdə tutulur [4].

Əvvəlki Mülki Məcəllədə 37-ci maddədə “ziyan” anlayışından, 18-də isə “ziyan” terminindən istifadə edilmişdir. Gördüyünüz kimi, həm köhnə, həm də yeni Mülki Məcəllədə “zərər” və “ziyan” terminindən istifadə edilir. Hüquq ədəbiyyatında göstərilən iki anlayışa münasibət birmənalı deyil. Müəlliflərin əksəriyyəti bu anlayışları sinonim anlayışlar hesab edirlər. Bəzi müəlliflərin fikrincə isə, əmlak zərəri çox vaxt “ziyan”adlanır, yəni ziyan və əmlak zərəri anlayışları sinonimdir.

Göstərilənlərdən bizə aydın olur ki, Məcəllənin 21-ci maddəsi şəxsin hüquqlarının pozulmasının nəticəsi olaraq maddi zərərin ödənilməsinin ümumi qaydaları kimi qəbul edilə bilər, baxmayaraq ki, qanunvericiliyin əsas vəzifələrindən birini mülki hüquq subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləmək təşkil edir. Zərərlə bağlı olaraq müddəalar mülki qanunvericiliyin ümumi hissəsinin digər normalarında da öz əksini tapmışdır.

Mülki Məcəllənin 23.4-cü maddəsinə uyğun olaraq şərəfini, ləyaqətini və yaxud işgüzar nüfuzunu ləkələyən məlumatlar yayılmış fiziki şəxsin həmin məlumatların tərkibi ilə yanaşı, onların yayılması nəticəsi olaraq vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ təsbit edilmişdir. Bu qaydalar, həmçinin, hüquqi şəxsin işgüzar nüfuzunun müdafiəsinə də tətbiq olunur. Lakin bu maddə də göstərilən zərərin xarakteri, yəni maddi və yaxud mənəvi zərər olduğu birbaşa göstərilməmişdir. Yalnız ayrı-ayrı qanunlarda mənəvi ziyanın ödənilməsini nəzərdə tutan maddələr mövcuddur. Bu qanunlar isə mənəvi ziyanın anlayışını açıqlamır.

Şəxsin şərəfi, ləyaqəti və işgüzar nüfuzu təhqir edilirsə, o, sarsıntı, iztirab keçirir və bununla da mənəvi təhqirə məruz qalır. Bunun nəticəsində şəxs mənəvi və maddi zərərə məruz qalır. Ali Məhkəmə Plenumunun “Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında” 14 may 1999-cu il tarixli 7№li qərarında qeyd olunur ki, ümumiyyətlə, fikir, söz, mətbuat, məlumat, yaradıcılıq azadlıqlarını həyata keçirildikdə qanunlara əməl edildiyi, insanların hüquqlarına hörmətlə yanaşıldığı zaman, bəzi vətəndaşlar və kütləvi informasiya vasitələri onlara verilmiş bu hüquq və azadlıqlardan istifadə edildikdə başqalarının şərəf və ləyaqətinə toxunan, onları ləkələyən hərəkətlərə yol verirlər.

Mənəvi zərər, adətən, vətəndaşların şəxsi qeyri-əmlak hüquqlarının pozulmasının nəticəsi olaraq meydana gəlir. Mənəvi zərər qeyri-əmlak zərəri daxil olmaqla, iqtisadi məzmun və dəyər

daşımayan hüquq pozuntusudur. Belə zərər vətəndaşa anadan olduğu vaxtdan və yaxud qanun əsasında ona aid olan qeyri-maddi nemətlərə aid hüquqlar, məsələn, şərəf, ləyaqət, işgüzar nüfuz, şəxsi ailə sirri, yaşayış yeri seçmə, ad hüququ, müəlliflik hüququ, şəxsi qeyri-əmlak hüquqlar və digər maddi nemətlər hüquqlarını pozmaqla fiziki şəxsə mənəvi sarsıntı, iztirab verir [5].

Mənəvi zərər bilavasitə zərər vuran şəxsin hərəkətlərindən sonra zərər çəkmiş şəxsin şüuruna təsir göstərməklə mənfi psixoloji vəziyyətin yaranmasına səbəb olur. Mənəvi zərər vətəndaşların hüquqlarının pozulmasının müstəqil formada nəticəsidir. O, həm vurulmuş əmlak zərəri ilə birlikdə, yaxud əmlak zərəri vurulmadığı hallarda da kompensasiya edilə bilər.

Mənəvi zərər ödənilərkən mənəvi və fiziki iztirabların xarakteri və dərəcəsi, həmçinin də cavabdehin təqsiri, əmlak vəziyyəti kimi vacib nüansların nəzərə alınması mühümdür və hər bir konkret halda belə zərərin ödənilməsi ilə əlaqədar olaraq xüsusatlar məhkəmənin mülahizəsinə görə müəyyən edilməlidir.

Hüquq ədəbiyyatında qeyd olunur ki, zərər termininin işlənməsi daha düzgündür, çünki zərər dedikdə isə dövlətin, təşkilatların, fiziki şəxslərin qanun tərəfindən mühafizə olunan hüquq və mənafelərinin onların əmlak və yaxud qeyri-əmlak sferasında əlverişsiz dəyişikliklər formasında pozulması nəzərdə tutulur. Fikrimcə, zərər anlayışının qanunvericilikdə ümumi anlayış kimi işlədilməsi məqsədəuyğundur. ”Ziyan” anlayışından isə əmlak xarakterli zərəri ifadə etmək üçün istifadə oluna bilər.

Bəzi müəlliflər, zərərin pulla ifadəsinin ayrıca anlayışla ifadə edilməsini təklif edirlər. S. Allahverdiyev və Ə. Hacıbəyli tərəfindən zərərin pulla ifadə olunduğunu göstərmək üçün “itki“ anlayışından istifadə olunmağı təklif olunur. Fikrimcə, bu təklif Azərbaycan dilinin qrammatikasına, qanunvericilik texnikasına və mülki hüquq nəzəriyyəsinin əsas prinsiplərinə zidd olmadığı üçün məqbul sayıla bilər.

Bu gün bəzi konstitusiyalar açıq formada zərərin əvəzinin ödənilməsi hüququna zəmanət verir. Konstitusiyamızın 68-ci maddəsinə uyğun olaraq, zərərin ödənilməsini tələb etmək hüququ birbaşa öz əksini tapmışdır. Həmin maddənin birinci bəndində qeyd edilir ki, cinayət, həmçinin hakimiyyətdən sui-istifadənin nəticəsi olaraq zərər çəkmiş şəxsin hüquqları qanunla tənzimlənir. Zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.

Həmin qanunun 68-ci maddəsinə uyğun olaraq” zərər çəkmiş” anlayışı kifayət qədər geniş bir kateqoriyanı təşkil edir. Buraya həm cinayət nəticəsində, həm də dövlət hakimiyyət orqanlarının qanunsuz hərəkətləri nəticəsi olaraq mənafelərinə toxunulmuş subyektlərin hamısı daxildir. Qeyd edək ki, istər cinayət prosesində, istərsə də digər proses növlərində bu şəxslərin onlara dəymiş zərərin ödənilməsindən ibarət maraqları mövcud olur. Şübhəsiz ki, bu marağın təmin edilməsi ilə əlaqədar olaraq həmin şəxslərə müəyyən hüquqlar verilməlidir. Məhz ölkə konstitusiyasında həmin şəxslərə ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və dəymiş zərərin ödənilməsini tələb etmək hüququnun verilməsi insan hüquqlarının müdafiəsi və təminatı sahəsində ən mühüm nailiyyətlərdən biri kimi qiymətləndirilməlidir [6].

Hesab edirik ki, konkret hüquq pozuntusu ilə əlaqədar olaraq milli qanunvericiliyin mənəvi ziyanla bağlı olaraq kompensasiya ödənilməsini nəzərdə tutmadığı hallarda dövlətimizin iştirakçısı olduğu beynəlxalq müqavilələr, xüsusən İnsan hüquqları haqqında Avropa Konvensiyası, Avropa İnsan Hüquqları Məhkəməsinin presedentləri, həmçinin qanun analogiyası və hüququn ümumi prinsipləri əsas götürülməklə pozulmuş hüququn bərpası üçün mənəvi ziyana görə kompensasiya ödənilə bilər. Mənəvi zərərin miqdarı işin konkret hallarından asılı olaraq məhkəmə tərəfindən

müəyyən edilir. Bu zaman mənəvi zərərin baş verməsinə səbəb olmuş hərəkətin və yaxud hərəkətsizliyin təhlükəlilik dərəcəsi, bunun nəticəsində zərər çəkənin keçirdiyi mənəvi iztirab, sarsıntıların xarakteri və ağırlığı, zərər vuran şəxsin təqsiri və əmlak vəziyyəti, zərər çəkən şəxsin fərdi xüsusiyyətləri, yəni azyaşlı və yaxud qadın olması, səhhəti ilə əlaqədar mənəvi sarsıntı və iztirablara dözümü, peşə və sənəti, cəmiyyətdə nüfuzu, habelə işin diqqətəlayiq halları nəzərə alınmalıdır. Zərərin məbləği ağlabatan və ədalətli olmalıdır.

Mənəvi zərər, haqsız bir hərəkət və yaxud hərəkətsizliyin nəticəsi olaraq şəxsin mənəvi varlığında məruz qaldığı zərərləri özündə əks etdirir. Lakin bir haşiyəni keçmək zəruridir ki, mənəvi zərərin yönəlmiş olduğu varlığın növü, mənəvi zərərin yaranıb-yaranmamasında rol oynamır. Belə ki, haqsız hərəkət və yaxud hərəkətsizlik istər şəxsin mənəvi varlığına, istərsə də əmlakına yönəlsin, bunun nəticəsi olaraq şəxs mənəvi sarsıntı və iztiraba məruz qalırsa, mütləq təzminat ödənməlidir.

Hesab edirik ki, hüquq pozuntusu törətmiş şəxsin cəzasız qalması özü əxlaqdankənar hal hesab olunur. Mənəvi zərərə görə pul kompensasiyası, müəyyən mənada, zərər çəkənə mənəvi rahatlıq gətirir. Digər tərəfdən, mənəvi zərərin kompensasiyası tələbi subyektiv hüquqdur və heç kəs ondan istifadəyə məcbur edilə bilməz.

Bununla bərabər, həmin dövrün hüquq ədəbiyyatında mənəvi zərərin kompensasiyası ilə əlaqədar olaraq bir sıra tədqiqatlar yerinə yetirilirdi. Belə ki, XX əsrin 60-70-ci illərdə Y. Kalmıkov, M.Şiminova, N.Malein, A.Belyakova və digər tanınmış alimlərin əsərlərində mənəvi zərərin kompensasiya edilməsinin əhəmiyyəti qeyd olunurdu. Hələ keçən əsrin 70-ci illərinin hüquq ədəbiyyatında mənəvi zərərin kompensasiyası hüququnu yarada biləcək aşağıdakı faktlar fərqləndirilirdi: borclunun öz vəzifələrini vaxtında həyata keçirməməsindən irəli gələn vaxt itkisi, müəyyən edilmiş normalardan artıq olan səs-küylər və yaxud vibrasiya, yaşayış evlərinin zirzəmilərində, yaxud birinci mərtəbələrində yerləşən emalatxana və yaxud müəssisələrdə quraşdırılmış qurğuların nasazlığı üzündən mənzillərə daxil olan buxarlardan yaranan narahatlıqdır. Lakin mənəvi zərərin ödənilməsi ilə bağlı olaraq müddəalar qanunvericilikdə ilk dəfə olaraq öz əksini 31 may 1991-ci il tarixli “SSRİ və müttəfiq respublikaların mülki qanunvericiliyinin əsaslarının” 131-ci maddəsində öz əksini tapmışdır.

Müstəqillik dövründə qəbul olunmuş ilk normativ aktlarda da mənəvi zərərin kompensasiyası institutu öz əksini tapa bilmişdir. ”Kütləvi informasiya vasitələri haqqında” 21 iyul 1992-ci il tarixli Azərbaycan Respublikası Qanunu hansı ki, 11 mart 2001-ci il tarixli qanunla qüvvəsini itirmişdir, hal-hazırda 7 dekabr 1999-cu il tarixli eyni adlı qanun qüvvədədir; ”İstehlakçıların hüquqlarının müdafiəsi haqqında ”19 sentyabr 1995-ci il tarixli qanun; ”Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmş ziyanın ödənilməsi haqqında” 29 dekabr 1998-ci il tarixli qanun bunun bariz nümunəsi qismində çıxış edə bilər. Hətta sonuncu qanunda mənəvi zərər anlayışı da qeyd edilmişdir. Həmin qanunun 7-ci maddəsinə uyğun olaraq, şəxsin barəsində mənfi fikir formalaşmasına, onu əhatə edən şəxslərlə münasibətlərin pisləşməsinə səbəb olan və digər mənəvi xarakterli mənfi nəticələr mənəvi zərər hesab olunur. Lakin təəssüflər olsun ki, yeni iqtisadi münasibətlərin tənzimlənməsi üçün qəbul olunmuş Mülki Məcəlləmizdə mənəvi zərər anlayışı verilməmişdir [7].

Konstitusiyamızın insan və vətəndaş hüquqlarının müdafiəsi istiqamətində belə bir yanaşmaya tərəfdar olması o deməkdir ki, ölkənin əsas qanunu insanların sağlamlığının, əmlakının şərəf və ləyaqətinin qorunmasına, dövlət orqanlarının yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və yaxud hərəkətsizliyinin nəticəsi olaraq vurulmuş zərərin ödənilməsini tələb etmək hüquqlarına təminat verilir.

Konstitusiyaya uyğun olaraq, şəxsin sağlamlığına, həyatına, əmlakına, şərəf və ləyaqətinə vurulan ziyan ödənilməlidir. Onu da qeyd etmək istəyirəm ki, Konstitusiyamız, demək olar ki, beynəlxalq səviyyədə tanınan bütün hüquq və azadlıqları əhatə edir. Konstitusiyamızın unikallığını əks etdirən ən mühüm cəhətlərdən biri özündə əksər dövlətlərin konstitusiyalarından fərqli olaraq insan hüquqlarının üçüncü nəslinə aid olan "sağlam ətraf mühitdə yaşamaq hüququ"nu tanınmasıdır.

Beynəlxalq hüquqşünas alimlərdən biri olan L. Hüseynov sağlam ətraf mühitdə yaşamaq hüququnun pozulması zamanı bu hüququn fərdin dövlətə qarşı subyektiv tələbi formasında ifadə olunmasının mümkünlüyünün çətin olmasını onun məhkəmə qaydasında müdafiəsinin qeyri-mümkünlüyü ilə, başqa bir tərəfdən isə bu hüququn ayrılıqda nəzərdə tutulmuş bir dövlətin yurisdiksiyasında tam realizə oluna bilməməsi ilə əlaqələndirilir. Müəllif qeyd edilən problemin həlli yolunu ətraf mühit hüququnun elementlərinin yaşamaq hüququnun və yaxud sağlamlıq hüququnun geniş təfsiri zamanı nəzərə alınmasında görür.

Hüquq ədəbiyyatında insan hüquqlarının üçüncü nəslinin yaranması son dövrün inkişaf xüsusiyyətləri ilə şərh olunur. Bu şərhə uyğun olaraq, indi obyektiv olaraq elə hüquqlar meydana gəlmişdir ki, onlar ayrı-ayrılıqda fərdə və yaxud fərdlər qrupuna yox, büövlükdə xalqa aiddir. İndinin özündə də bu hüquqların təbiəti, normativ məzmunu mübahisə predmetidir.

Deyinlənlərdən belə bir təklif vermək olar ki, qanunverici orqan Konstitusiyamızın 39-cu maddəsinin birinci bəndini, həmçinin insan hüquqlarına aid beynəlxalq standartları nəzərə alaraq müəyyən qanunvericilik tədbirləri görməli, bu hüququn elementləri qanunvericilik qaydasına uyğun olaraq geniş təfsir edilməlidir. Milli məhkəmələr isə bu kateqoriyadan olan işlərlə əlaqədar qərar çıxararkən beynəlxalq məhkəmə orqanlarının təcrübəsinə istinad etməli, onları öyrənməlidir.

Konstitusiyamızın 39-cu maddəsində hər bir şəxsin sağlam ətraf mühitdə yaşamaq hüququ öz əksini tapır. İnsanların sağlam ətraf mühitdə yaşamağa iddia etmək tələbi təbii formada qarşılanmalıdır və eyni zamanda dövlət ətraf mühitin çirkləndirilməsinə səbəb olan və səbəb ola biləcək hər hansı fəaliyyətin qarşısını almaq üçün kompleks tədbirlər görülməlidir.

Zərər çəkmiş şəxsin şəxsi marağı bütün hallarda həm cinayət, həm də mülki deliktin nəticəsi olaraq pozulmuş hüquqlarının bərpa olunması, şərəf və ləyaqətin müdafiə edilməsi, həmçinin şəxsə dəymiş əmlak, eləcə də fiziki və mənfi zərərin aradan qaldırılmasından ibarətdir. Konstitusiyamızın 65-ci maddəsinin II bəndində qeyd edilir ki, bu Konstitusiyada nəzərdə tutulan insan və vətəndaş hüquqları və azadlıqları dövlətimizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq olunur. Bu isə ona şərait yaradır ki, dövlətin hüquq tətbiq edən orqanları, xüsusi ilə də məhkəmələr konkret işlərə baxarkən birbaşa həmin beynəlxalq aktlara, həmçinin beynəlxalq təcrübəyə istinad etsinlər. Konstitusiyamızın 46-cı maddəsində hər bir şəxsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququnun öz əksini tapması, şəxsiyyətin ləyaqətinin dövlət tərəfindən qorunmasına təminat verilir

Konstitusiya Məhkəməsinin həmin qərarında göstərilir ki, Mülki Məcəlləmizin 23-cü maddəsində nəzərdə tutulan zərər dedikdə şərəfin, ləyaqətin və işgüzar nüfuzun ləkələnməsi ilə əlaqədar olaraq şəxsə dəymiş mənəvi zərər və maddi zərər başa düşülür. Mənəvi zərərin ödənilməsi, həmçinin qanunvericilikdə qeyd edilmiş başqa məhdudiyyətlərin tətbiq olunması Konstitusiyamız ilə qorunan digər əsas hüquq və azadlıqlara münasib olmaqla hər bir konkret halda məhkəmənin mülahizəsindən asılıdır [8].

Hesab edirik ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu dövlət Konstitusiyasında, beynəlxalq hüquqi aktlarda təsbit edilmiş hüquq və azadlıqları təmin edilməsi baxımından, həmçinin Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsindən istifadə edərək

məhkəmələr tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi zamanı mənəvi zərərin ödənilməsi ilə əlaqədar qanunvericiliyin düzgün və eyni cür tətbiq olunması üçün müəyyən qərar qəbul etməlidir.

İnsan hüquqlarının müdafiəsi sferasında zəruri cəhətlərindən biri zərərin ödənilməsini tələb etmək imkanının ölkə Konstitusiyası ilə bərabər, digər sahəvi qanunlarda öz əksini tapmasıdır. Məhz bununla bağlı olaraq insan hüquqlarının pozulmasının nəticəsi olaraq vurulmuş zərərin ödənilməsi imkanını nəzərdə tutan qanunların bəzilərini qeyd etmək istəyirəm.

Həmin kataloqdan olan qanunlardan biri "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmş ziyanın ödənilməsi haqqında" 13 fevral 1998-ci il tarixli qanundur. Bu qanunun əsas məqsədi təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının və yaxud onların vəzifəli şəxslərinin qanunsuz hərəkətlərinin nəticəsi olaraq fiziki şəxslərə vurulmuş ziyanın dövlət tərəfindən ödənilməsi hüququnun təmin olunmasına yönəlmişdir. Təhlil edilən qanunun, həmçinin digər qanunvericilik aktlarının müddəalarına uyğun olaraq təhqiqat, ibtidai istintaq prokurorluq və məhkəmə orqanlarının və yaxud onların vəzifəli şəxslərinin qanunsuz hərəkətlərinin nəticəsi olaraq fiziki şəxslərə vurulmuş ziyanın dövlət tərəfindən ödənilməsi İnsan hüquqlarının pozulması ilə əlaqədar vurulmuş zərərin ödənil-məsini qeydə alan müddəa Azərbaycan Respublikasının Əmək Məcəlləsində də öz əksini tapmışdır. Azərbaycan Respublikasının Əmək Məcəlləsi özündə fiziki şəxslərin əmək hüquqlarının və bu hüquqların yerinə yetirilməsini təmin edən minimum normaları əks etdirir.

Aydın məsələdir ki, insanların sərf etdiyi əməyin nəticəsi olaraq cəmiyyətin iqtisadi əsasını təşkil edən Azərbaycan Respublikasının Əmək Məcəlləsi dövlət hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri nəticəsi olaraq vurulan ziyanın ödənilməsini də əhatə edir. Həmin məcəllənin 291-ci maddəsinə uyğun olaraq, əmək müqaviləsinin tərəflərinin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və yaxud hərəkətsizliyinin nəticəsi olaraq vurulmuş ziyanın ödənilməsini tələb etmək və bu ziyanın dövlət tərəfindən ödənilməsi hüququna malikdir [9].

İnsan hüquqlarının pozulmasının nəticəsi olaraq vurulan zərərin əvəzinin ödənilməsini Azərbaycan Respublikasının bir sıra qanunvericilik aktlarında da öz əksini tapır. Belə qanunlara "Polis haqqında" qanunu, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunu, "Milli təhlükəsizlik haqqında" qanunu, "Terrorizmə qarşı mübarizə haqqında" qanunu, "Ətraf mühitin mühafizəsi haqqında" qanunu və başqalarını nümunə göstərmək olar.

Şərəf, ləyaqət və işgüzar nüfuza qəsd zamanı mənəvi zərərin müəyyən olunmasının xüsusi meyarlarına məlumatları yayanın statusunu, həqiqətə uyğun olmayan məlumatları yayanın statusunu, həqiqət olmayan məlumatların yayılmasının nəticələrini, kompensasiyasının həcmi müəyyən olunarkən isə dəqiq halları cavabdehin fərdi xüsusiyyətləri, yaydığı ləkələyici məlumatları könüllü formada təkzib etməsi və digər halların daxil olunması məqsədəuyğun olmalıdır.

Qanunsuz formada şəxsin azadlıqdan məhrum olunması və yaxud onun məhdudlaşdırılması hüquq pozuntusu hesab olunur və buna uyğun şəkildə cəzalandırılır. Məsələn, adam oğurluğu ilə əlaqədar olmayan azadlıqdan məhrumetmə, psixi dispanserdə qeyri-qanuni formada yerləşdirilmə, yaşayış yerinin toxunulmazlığının pozulması kimi əməllər cinayət hesab edilir və onun nəticəsində zərər çəkənə fiziki və yaxud psixi iztirab vurulur.

Qanunvericilik insanın toxunulmazlığının hər hansı bir formada pozulmasına və yaxud ona şəxsin iradəsinin əksinə olaraq müdaxilə etməyə yol vermir. Xüsusilə də, bu insanın cinsi toxunulmazlığının pozulması hallarına şamil edilir. Qüvvədə olan qanunvericiliyə görə, onun pozulması bütün hallarda cinayət hesab olunur.

Qeyd edilən hallarda mənəvi zərərə görə kompensasiya hüququ zərər vuran şəxsin əməllərində cinayət tərkibinin əlamətləri olduqda meydana çıxır. Yəni eyni bir əməl özündə mülki hüquq pozuntusunu, həmçinin cinayət tərkibini əks etdirir. Ümumiyyətlə, bu zaman sübutetmənin də məqsədləri bir-birinə uyğun gəlir. Belə halda, cinayət işi üzrə sübutetmə daha mühüm və ilkin olduğundan, təqsirkar şəxsin əməllərində göstərilən cinayət tərkiblərindən birinin mövcud olması və sübuta yetirilməsi isə insanın müəyyən olunan qeyri-maddi hüquq və rifahlarının pozulması ilə müəyyən olunacaq.

Bu hüquq pozuntusunun fərqləndirici cəhətlərindən də biri odur ki, məlumatlar həqiqətə adekvat olmalıdır. Həmin məlumatlarla əlaqədar olaraq yuxarıda qeyd edilən hərəkətlərin yerinə yetirilməsinə qoyulan qadağalar isə öz əksini onda tapır ki, həmin məlumatlar səlahiyyətli orqanlar tərəfindən qanunla müəyyən olunmuş qaydaya uyğun olaraq təsdiq edilmiş siyahılara daxil olunur, yaxud da müəyyən statusa malik şəxsə onun peşə və ya xidməti vəzifəsilə əlaqədar olan məlumatları yayması qadağan edilir.

Müəllif hüquqlarının pozulması Azərbaycan Respublikasının müəlliflik hüququ haqqında uyğun qanunvericiliyə riayət olunmaması ilə müəyyən edilir. Müəllif hüquqların pozulmasının iki növü vardır: əmlak və qeyri-əmlak xarakterli pozuntular. Əmlak xarakterli pozuntu müəllifə maddi ziyanın vurulmağı ilə əlaqəlidir, eyni zamanda qeyri-əmlak xarakterli hüquq pozuntusu haqqında qeydlər etmişəm.

Patent hüququndan irəli gələn münasibətlər isə patent qanunvericiliyi ilə, o cümlədən “Patent haqqında” 25 iyul 1997-ci il tarixli qanun ilə tənzimlənir. Müəlliflik hüququndan fərqli olaraq, patentə sahiblik hüququnun rəsmi qeydiyyatdan keçdikdən sonra yaranmasına baxmayaraq, onların mühafizə əsasları və üsulları eynidir. Mənəvi zərərə görə kompensasiya hüququ patent sahibinin ixtira, faydalı model və sənaye nümunəsi üzərində şəxsi qeyri-əmlak hüquqları pozulduğu zaman meydana çıxır. Bunların müəllifini isə tam əminliklə müəllif adlandırmaq olar [10].

Bu gün müasir, hüquqi və demokratik dövlətin əsas və son məqsədi qanunvericiliyin təmin edilməsi, dövlət orqanları və onların vəzifəli şəxslərinin mümkün ola biləcək hüquqa zidd hərəkətlərinin qarşısının alınması və bunun nəticəsi olaraq, vətəndaşların hüquq və azadlıqlarının həqiqi müdafiəsinə nail olmaqdan ibarətdir. Beləliklə, vətəndaşlarla hakimiyyət arasında, həmçinin vətəndaşların özləri arasında olan mübahisələr məhkəmələr tərəfindən həll olunmalı, pozulmuş hüquqlar bərpa edilməlidir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 8-ci maddəsinə uyğun olaraq, “hər bir şəxs Konstitusiyanın və yaxud qanunun ona verdiyi hüquqların pozulması zamanı səlahiyyətli milli məhkəmələr tərəfindən hüquqlarının bərpa edilməsi hüququna malikdir”. Qeyd etmək istəyirəm ki, beynəlxalq səviyyədə tanınmış insan hüquqlarının müdafiə olunma yolları qanunvericiliyimizdə öz əksini tapmışdır. Demokratik dəyərlərə cavab verən ölkə qanunvericiliyi insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunması dövlətin ali məqsədi hesab olunmaqla yanaşı, bu hüquqların məhkəmə qarşısında müdafiə edilməsi üçün real mexanizmlər müəyyən olunur. Hüquqşünas alimlərin rəyinə uyğun olaraq, hüquqi dövlətin ən bariz əlamətlərindən biri hüququn məhkəmə müdafiəsinə söykənməsidir.

Mənəvi ziyanın ödənilməsinin əsasını təşkil edən belə qanunlardan biri “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” qanunun 12-ci maddəsində birbaşa qeyd olunur ki, istehlakçıların bu qanunda qeyd edilən hüquqları istehsalçı tərəfindən pozularsa, istehlakçıya dəyən mənəvi ziyan günahkar tərəfindən ödənilməlidir. Ödənilən ziyanın dəyəri qanunda başqa hal qeyd olunmayıbsa, məhkəmə tərəfindən müəyyən olunur. Həmin qanunun 1-ci maddəsinə uyğun olaraq istehlakçı - şəxsi tələbatını ödəmək məqsədilə mal, iş və xidmətlərdən istifadə edən, onları alan, sifariş verən, almaq

və yaxud sifariş vermək niyyəti olan şəxsdir. Bütün qeyd olunan hərəkətləri etmək üçün isə istehlakçı birinci müqavilə bağlamalıdır. Həmin qanunun 12-ci maddəsinə uyğun olaraq əgər qarşı tərəf qanunda qeyd olunan hüquqları ilə bağlı müqavilənin hər hansı şərtini pozarsa, istehlakçı qarşısında bütün digər delikt növləri ilə bərabər, eyni zamanda mənəvi ziyana görə məsuliyyət daşıyır. Azərbaycan Respublikasının qanunvericiliyində bu məsələ xüsusi hal hesab edilməlidir. Bu o deməkdir ki, mənəvi ziyan müqavilə öhdəliyi olmasa belə, müqavilə şərtinin pozulması, onun yerinə yetirilməməsi və yaxud lazımi formada yerinə yetirilməməsi şəxsə dəyən mənəvi ziyanın ödənilməsi üçün əsas rol oynayır.

“Reklam haqqında” 3 oktyabr 1997-ci il qanununda mənəvi ziyan anlayışı istifadə olunmasa da, müvafiq qanunun 30.2-ci maddəsi bunu deməyə dəlalət verir ki, reklam qanunvericiliyinin pozulması da mənəvi ziyanın ödənilməsi üçün əsas hesab edilir. Belə ki, 30.2-ci maddəyə uyğun olaraq haqsız reklamın nəticəsi olaraq hüquqları pozulmuş şəxslər şərəf və ləyaqətinin qorunması, həmçinin vurulan zərərin ödənilməsi iddiası ilə uyğun məhkəməyə müraciət edə bilər. Burada qeyd edilən şərəf və ləyaqət şəxsi hüquqlar aiddir, pozulmalarına görə mənəvi ziyan müəyyən olunur [11].

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” 5 iyun 1996-cı il tarixli qanunun tənzimetmə obyekti olan müəlliflik, yəni elm, ədəbiyyat və incəsənət əsərləri və əlaqəli hüquqların, yəni ifalar, fonoqramlar, efir və kabel yayımı təşkilatlarının verilişləri şəxsi qeyri-əmlak hüquqları olduğu heç bir şəxsdə şübhə yaratmır. Ancaq bu qanunda tənzimetmə obyektini təşkil edən hüquqların pozulduğu üçün mənəvi ziyan qeydə alınmır. Beləliklə, bu, şəxsi ona dəyən mənəvi ziyanın ödənilməsini tələb etmək hüququndan məhrum edir.

Lakin əgər məhkəmə təcrübəsinə əsaslansaq, bizə aydın olur ki, mənəvi ziyanın ödənilməsi məsələsinə uyğun olaraq kütləvi informasiya vasitələrində şəxsin şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyən məlumatların yayılması ilə bağlıdır. Aydındır ki, bir qanuna uyğun olaraq təmərküzləşmə diqqətəlayiq hal hesab olunmur. Lakin bununla belə, mənəvi ziyanın ödənilməsi əsası kimi “Kütləvi informasiya vasitələri haqqında” 7 dekabr 1999-cu il qanunu xüsusi əhəmiyyətə malikdir. Beləliklə, qanunun 10.1-ci maddəsinə uyğun olaraq şəxsin şərəf və ləyaqətini alçaldan şayiələr, yalan qərəzli yazılar və digər nəşr edilməsi qanunla qadağan edilən yazıların yayılması yolverilməz haldır. Belə olan halda, zərərçəkənin öz seçimi ilə hər hansı KİV-də təkzib, düzəliş və cavab vermək hüququ var.

Zərərçəkənin bu hüquqları ona dəyən mənəvi ziyanın ödənilməsini tələb etmək hüququnu istisna etmir. Bu vaxt başqa şəxsin şərəf və ləyaqətini ləkələyən məlumatların doğruluğunu sübut etmək vəzifəsi iddiaçının deyil, cavabdehin üzərinə düşür. Belə təhlildən belə nəticəyə gəlmək olar ki, mənəvi ziyan məsələsi dövlət qanunvericiliyində hələ də öz hərtərəfli və vahid nəzərdə tutulmayıb, vahid tənzimləmə üsuluna keçmək daha uyğun hesab olunur, bu həm də məhkəmə təcrübəsi üçün bəzi çətinlikləri aradan qaldırmağa kömək edər.

Xüsusi olaraq onu da vurğulmaq istəyirəm ki, ölkəmizin Avropa İnsan Hüquqları Konvensiyasına qoşulması ilə bağlı olaraq dövlətin hüquqi mühiti yeni bir keyfiyyətə, yeni bir meyara-Avropa standartlarına qədəm qoymuş oldu. Bu, əlbəttə ki, hər şeydən əvvəl qeyd olunan Konvensiyanın dünyada ən səmərəli hüquq müdafiə mexanizmi olmağı, insan hüquq və azadlıqlarının qorunmasında, həmçinin daha da inkişaf olunmasında Konvensiyanın və onun əsas institusional mexanizmi olan Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun rolu və əhəmiyyəti, Konvensiyanın iştirakçısı olan ölkələrin qanunun aliliyi, plüralist demokratiya və insan hüquqlarının müdafiəsi sahəsində böyük tarixi ənənələrə və qabaqcıl siyasi-hüquqi infrastruktura sahib olması, eləcə də Konvensiyanın beynəlxalq müqavilə kimi özünə aid hüquqi təbiətə malik olması ilə izah edilə bilər [12].

Dövlətimizin Avropa İnsan Hüquqları Konvensiyasına qoşulmağı milli məhkəmələr tərəfindən işlərə baxılarkən Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiq edilməsini şərtləndirir. Konvensiyanın 46-cı maddəsində qeyd olunur ki, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının məcburi hüquqi qüvvəyə malik olmasını təsbit olunur. Məhkəmənin Konvensiyanın hər hansı maddəsi ilə əlaqədar olaraq verdiyi şərh həmin maddənin tərkib hissəsinə şamil edilir və ona görə də məcburi hüquqi qüvvəyə malikdir. Milli məhkəmələr üçün həmin presedentlərin əhəmiyyəti ondan ibarətdir ki, məhkəmələr onu əvvəllər Avropa Məhkəməsi tərəfindən baxılan işlərə oxşar işlərdə tətbiq olunmalıdır. Milli qanunverici və məhkəmə orqanları həmin qərarları qanun yaradıcılığı və Konvensiyanın hər hansı tətbiqi prosesində qeyd edilməlidir. Şübhəsiz ki, həmin məsələdə insan hüquqlarının pozulmasının nəticəsi olaraq vurulmuş zərərin ödənilməsi məsələsinin düzgün həlli, yəni Strasburq məhkəməsinin təcrübəsinə uyğun olaraq həlli istisna təşkil etmir.

Belə hesab edirəm ki, rəsmi dövlət orqanları ölkə vətəndaşlarının hüquqi biliklərinin inkişaf etdirilməsinə və maarifləndirilməsinə köməklik edən tədbirlər planı hazırlamalıdır. Ən azı Avropa Məhkəməsinin bir sıra mühüm əhəmiyyətli qərarları, o cümlədən, Azərbaycan Respublikası tərəfindən verilmiş şikayətlərə dair çıxardığı qərarlar, Avropa Məhkəməsinin Reqlamenti Azərbaycan dilində dərc olunmalı və yayılmalıdır. İnsan hüquqlarının pozulmasının nəticəsi olaraq vurulan zərərin əvəzinin ödənilməsi beynəlxalq hüquqda olduğu kimi, dövlətdaxili hüquqda da eyni məqsədlərə xidmət edir. Buna görə də vurulmuş zərərin əvəzinin ödənilməsinin spesifik elementləri həmişə qanuna uyğun olaraq nizama salınır [13].

Bu gün əksər konstitusiyalar kimi, Azərbaycan Respublikasının Konstitusiyası da zərərin əvəzinin ödənilməsinə təminat verir. Azərbaycan Respublikasının Konstitusiyasında əsas insan və vətəndaş hüquqları və azadlıqların sırasında fərdin sosial, siyasi, iqtisadi hüquqlarının, eləcə də azadlıqları və təhlükəsizliyinin dövlət tərəfindən qorunması və müdafiəsi demokratik, hüquqi dövlətə xas olan təminatlar kimi öz əksini tapmaqla, fərdin, cəmiyyətin, həmçinin dövlətin hərtərəfli inkişafına təkan verən amillərdən hesab edilməlidir.

**Nəticə**

Bu yazılanlardan belə nəticəyə gəlmək olur ki, Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş həyat, sağlamlıq, şərəf, ləyaqət, azadlıq, şəxsi toxunulmazlıq, şəxsi həyatın toxunulmazlığı və digər qeyri-əmlak hüquq və azadlıqlar mütləq xarakterə malik olaraq sahəvi qanunvericilik aktlarında da inkişaf etdirilir və qorunur. Qeyri-əmlak hüquqlarının müdafiəsi mülki hüquqi xarakterə malikdir və mühafizəedici xarakterli mülki hüquq münasibətləri çərçivəsində realizə olunur.

Belə nəticəyə gəlmək olar ki, mülki qanunvericiliyin mənəvi zərərin kompensasiyası ilə əlaqədar mülki hüquq münasibətlərinin müdafiəsinin xüsusi qaydasını nəzərdə tutması cəmiyyətin tələbatı üçün kifayət hesab edilə bilməz. Mülki hüquq münasibətlərinin müdafiəsi təminatlarının gücləndirilməsi fiziki şəxslərə vurulmuş fiziki və mənəvi iztirablara görə mənəvi zərərin vurulması prezumpsiyası prinsipinin qanunvericilik qaydasında təsbitini zəruri edir.

Mülki Məcəllənin "Zərərin əvəzinin ödənilməsi" adlanan 21-ci maddəsinin adı dəyişdirilərək "Zərərin əvəzinin ödənilməsi və kompensasiyası" adlandırılsa daha məqsədəuyğun olar. Həmin maddəyə aşağıdakı məzmunda bu anlayış əlavə edilə bilər: "Mənəvi zərər-şəxsi qeyri-əmlak hüquqlarını, yaxud qeyri-maddi nemətləri pozan hərəkətlərlə, eləcə də qanunla nəzərdə tutulmuş digər hallarda vurulan fiziki, yaxud mənəvi iztirablardır".

Qanunvericilik texnikasının vahidliyinin təmin olunması üçün "mənəvi zərərin vurulması" və "mənəvi zərərin ödənilməsi" terminoloji söz birləşməsi bütün qanunvericilik aktlarında müvafiq surətdə "mənəvi zərərin vurulması" və "mənəvi zərərin kompensasiyası" ilə əvəz edilməsini məqsədəuyğun hesab edirəm.

Belə hesab edirəm ki, Mülki Məcəllənin "Şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsi" adlanan 23-cü maddəsinə aşağıdakı müddəa əlavə edilsin: "Mənəvi zərərin kompensasiyası qaydaları hüquqi şəxsin işgüzar nüfuzunun müdafiəsinə tətbiq olunmur". Ona görə ki, hüquqi şəxslər mənəvi, yaxud fiziki iztirablar keçirə bilməzlər. Çünki cansız varlığa iztirabların keçirilməsi yaddır. Hüquqi şəxsin işgüzar nüfuzunun pozulması nəticəsində isə ona real zərər dəyə bilər və bu mənfəətin itirilməsi şəklində mövcud olur.

Mənəvi zərərin kompensasiyası ilə əlaqədar olaraq məhkəmə qərarının əsaslandırıcı hissəsində məhkəmə konkret hüquq pozuntusunun növünə görə mənəvi zərərin kompensasiyasını qeydə alan qanunvericiliyi, zərər vuranın və zərər çəkənin təqsirinin xarakterini və dərəcəsini, o cümlədən kompensasiyanın məbləğini müəyyən edərkən digər əsas halları dəqiq göstərməlidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2013.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Hüquq ədəbiyyatı nəşriyyatı, Bakı: Digesta, 2013.
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin kommentariyası. İ.Q. Əsgərov. Bakı: Qanun, 2011.
4. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanunu.
5. Yeni sənədlər bülleteni. Bakı, 2008.
6. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi: 20.08.2008-ci ilə qədər olan əlavə və dəyişikliklərlə / nəşrə məsul Ş. Xuduoğlu. Bakı: Qanun, 2008, 528s.
7. AR-nın Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair" 31 may 2002-ci il tarixli Qərarı.
8. AR-nın Ali Məhkəməsinin Plenumunun "Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" 14 may 1999-cu il tarixli Qərarı (35).
9. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" 5 iyun 1996-cı il tarixli Qanun.
10. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR-nın 28 oktyabr 1998-ci il tarixli Qanunu.
11. Fuller and Eisenberg. Basic Control Law // West Publishing Go. 1999.
12. Ali Məhkəmənin Plenumunun "Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 3 noyabr 2008-ci il tarixli qərarı.
13. İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanun.


## REFERENCES


1. Azerbayjan Respublikasinin Konstitusiyasi. Baki: Ganun, 2013.
2. Azerbayjan Respublikasinin Mulki Mejellesi. Hugug edebiyyati neshriyyati, Baki: Digesta, 2013.

3. Azerbayjan Respublikasinin Mulki Mejellesinin kommentariyasi. İ.Q. Esgerov. Baki: Ganun, 2011.
4. Azerbayjan Respublikasinin Mulki Mejellesine deyishiklik edilmesi hagginda ganunu.
5. Yeni senedler bulleteni. Baki, 2008.
6. Azerbayjan Respublikasinin Jinayet-Prosessual Mejellesi: 20.08.2008-ji ile geder olan elave ve deyishikliklerle / neshre mesul Ş. Xuduoghlu. Baki: Ganun, 2008, 528s.
7. AR-nin Konstitusiya Mehkemesinin «Azerbayjan Respublikasinin Mulki Mejellesinin 21 ve 23-ju maddelerinin sherh edilmesine dair» 31 may 2002-ji il tarikhli Gerari.
8. AR-nin Ali Mehkemesinin Plenumunun «Sheref ve leyagetin mudafiesi barede ganunverijiliyin mehkemeler terefinden tetbig edilmesi tejrubesi hagginda» 14 may 1999-ju il tarikhli Gerari (35).
9. «Muelliflik hugugu ve elageli huguglar hagginda» 5 iyun 1996-ji il tarikhli Ganun.
10. «Emeliyyat-akhtarish fealiyyeti hagginda» AR-nin 28 oktyabr 1998-ji il tarikhli Ganunu.
11. Fuller and Eisenberg. Basic Control Law // West Publishing Go. 1999.
12. Ali Mehkemenin Plenumunun “Menevi zererin ödenilmesi barede ganunverijiliyin mehkemeler terefinden tetbigi tejrubesi hagginda” 3 noyabr 2008-ji il tarikhli Gerari.
13. Istehlakchilarin huguglarinin mudafiesi hagginda” Ganun.

## *CHARACTERISTICS OF MORAL DAMAGE DUE TO VIOLATION OF HUMAN RIGHTS*

***Gasimzadeh I.I.***
***National Aviation Academy***

*One of the important qualities that regulate the formation of each person as a personality in society is that person's honor, dignity and business reputation. When the mentioned non-property rights are violated, a person has the right to demand compensation for the moral damage caused to him. If this was previously considered immoral, today is considered one of the important requirements of a democratic society. The analysis of judicial practice in the country proves to us that 80% of the civil cases considered by the courts related to the compensation of moral damage are related to the dissemination of information that is contrary to the truth and harms the interests of individuals in the mass media and it consists of cases related to the protection of dignity. The main reason for this is the lack of full improvement of the current legislation. In this article, the problems that are often encountered both in theory and in practice, and which have not yet been clearly resolved, are examined in connection with the compensation of moral damages.*

***Keywords:*** *honor, dignity, business reputation, moral damage, compensation, protection of civil law relations, moral suffering.*

***Rəyçi: h.f.d., dos. Qasımov S.Y.***

***Müəllif haqqında məlumat***



| **Soyadı, adı, atasının adı** | **İş yeri** | **Vəzifəsi, elmi dərəcəsi, elmi adı** | **Əlaqə** |
|---|---|---|---|
| Qasımzadə İlknur İlkin qızı | | Milli Aviasiya Akademiyasının magistrantı | Hh.hh.59@bk.ru<br>mob: (+994)70 889 49 99 |